ÜÇ ƏSRİN QƏZETİ
KASPİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET - ONLINE

# "TƏHSIL OCAĞININ BAŞINDA DURAN ÖZÜ RÜŞVƏT ALMAMALIDIR"

## Hamlet İsaxanlı: «Nə qədər ki, rüşvət və tapşırıq sistemi aradan qaldırılmayacaq, keyfiyyətdən danışmaq mümkün deyil»

*«Təhsil sahəsində problemlər nədən yaranır?», «Təhsilin səviyyəsini necə yüksəltməli?», «Mükəmməl təhsil sisteminə necə nail olmalı?», «Təhsildə mənfi halları necə aradan qaldırmalı?» - bu kimi suallar üzrə çox danışılsa da problemi həll edəcək cavablar hələ də tapılmayıb.*

*Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Hamlet İsaxanlının "Kaspi"yə müsahibəsi də təhsilimizin bugünkü vəziyyəti ilə bağlıdır.*

### Əgər kifayət olsaydı...



**-Bu gün ölkənin təhsil sahəsində yaranan əsas problemləri nədən ibarətdir?**

- Şübhəsiz ki, problemlər çoxdur. Çünki təhsil o qədər çoxşaxəli, çoxəhatəli və mürəkkəb bir prosesdir ki, onu hər tərəfdən qeyri-adi dərəcədə düzgün tənzimləmək mümkün olmur. Ümumiyyətlə, təhsil sistemi ilə bağlı dünyanın ən yaxşı təhsili olan bütün ölkələrdə belə şikayət var. İstəyirlər ki, təhsil daha gözəl olsun. Çünki təhsil cəmiyyətin əsasıdır, canıdır. Amma bizdə mövcud olan daha böyük nöqsanlar ölkənin keçdiyi yola bağlıdır. Azərbaycan və ona bənzər keçmiş sovet respublikalarında problemlər bir-birinə bənzərdir. Birində problemlər daha qabarıqdır, digərində islahatlar daha çox olub, amma problemlər bir-birinə bənzəyir. Bunlardan biri heç şübhəsiz, təhsildə keyfiyyətin ciddi surətdə aşağı düşməsidir. Düzdür, obyektivlik xətrinə demək lazımdır ki, müəyyən dəyişikliklər var. Amma ümumiyyətlə, Sovet İttifaqı dağılandan sonra və ya həmin ərəfədə iqtisadi böhran hər tərəfə, o cümlədən təhsilə də təsir etdi. Çünki iqtisadi, texnoloji zəiflik, siyasi hərc-mərclik – bunların hamısı təhsilə həm maddi, həm mənəvi, həm də təşkilati baxımdan birbaşa təsir edirdi, onun təməlini sarsıdırdı. Həm orta, həm də ali məktəblərdə həm müəllimlərin təlimi, həm də innovasiyalar, yeni təşəbbüslər baxımından irəliləmələr yox idi.

Sovet dövründə uğurların əsas səbəblərindən biri təhsilin keyfiyyətinin yaxşı olması idi. Amma o dövrdə də ideologiyadan gələn məhdudiyyətlər var idi. Məsələn, informasiya-kommunikasiya texnologiyalarında sovetlər geri idi. Yaxşı bir kompyuter və ya nəqliyyat sferasında kiçik bir normal maşın istehsal edə bilmədilər. Eləcə də genetika, biotexnologiya kimi aparıcı sahələrdə geri qaldılar. Elmdə və texnologiya sahəsindəki gerilik təhsildə özünü göstərir. Bütün bunların nəticəsi olaraq ümumi keyfiyyət aşağı düşdü.

Digər tərəfdən, iqtisadi çətinliklər, ümumi keyfiyyətin, məsuliyyətin aşağı düşməsi, mənəviyyatın aşınması təhsildə korrupsiyanı və tapşırıq sistemini qeyri-adi dərəcədə inkişaf etdirdi. Demək olar ki, bu, az qala idarə üsuluna çevrildi. Yəni biri iş görəndə digərinə tapşırmalı, ya da pul verməlidir. Bunlar sovet dövründə var idi, amma onlara, yetərli olmasa da, müəyyən müqavimət də vardı. Hərc-mərclik dövründə isə bunların qarşısını almaq mümkün olmadı. Mən

korrupsiyanın və tapşırıq sisteminin həddən artıq geniş yayılmasını təhsilin və ümumiyyətlə ölkənin mühüm problemi hesab edirəm. Bunlardan doğan başqa bir problem də dünya təhsil sistemi ilə əlaqənin çox zəif olması idi. Moskvadan məhrum olandan sonra "Biz hardan öyrənməliyik?" sualı yarandı. Bir növ əyalətçilik əmələ gəldi. Yəni özümüz öz qazanımızda qaynamağa başladıq.

Bu da daha bir mənfi hal kimi şərh ola bilər.

Əlbəttə, son illər müəyyən pozitiv dəyişmələr var. Yəni problem heç də 1995 və ya 1998-ci illərdə olduğu kimi deyil. O vaxtdan orta və ali təhsildə müəyyən dəyişikliklər baş verib. Ancaq bu, qəti surətdə kifayət deyil. Əgər kifayət olsaydı, heç təhsil problemləri ilə bağlı müşavirələr də keçirilməzdi. Bu cür müşavirələr dövri olaraq keçirilir. Ancaq təəssüf ki, bunun çox böyük effekti olmur!

### Orta məktəblərin bədbəxtçiliyi

**- Tələbə Qəbulu üzrə Dövlət Komissiyası buraxılış imtahanlarının nəticələrini təhlil edərkən 9-cu və 11-ci siniflərin şagirdləri arasında nəinki minimal tədris proqramını mənimsəməyənlərin, hətta oxumaq və yazmağı bacarmayanların olduğunu aşkarlayıb. Bu problemi kimin ayağına yazmaq olar?**

- Əgər təhsildə ciddi islahatlar etmək, keyfiyyətə nail olmaq istəyiriksə, buna əvvəlcə orta məktəblərdən başlamaq, orada irəliləyiş əldə etmək lazımdır.Çünki hamı orta məktəbdə oxuyur. Yəni adamı vətəndaş edən, ona savad verən, əsas təhsil mərkəzi orta məktəbdir. Ali məktəb ixtisas verir və ali məktəbə şagirdlərin ancaq bir hissəsi gəlir. Orta məktəbdə insan təxminən necə formalaşırsa, sonrakı həyat yolu (ali məktəbdə və ya iş yerində) ona bənzər şəkildə davam edir, onu əks etdirir. Məncə orta məktəblərin fəaliyyətinə qeyri-adi dərəcədə ciddi fikir verilməlidir, idarəetmə və keyfiyyətə nəzarət olmalıdır. Yuxarıda sadaladığım səbəblər ümumiyyətlə təhsilin problemlərinə aid olmaqla orta məktəblərin zəif olmasının da səbəbləridir.

Əvvəllər orta məktəblərin funksiyası bütün fənlər üzrə şagirdlərin minimum biliyini təmin etmək idi, yəni şagird minimum biliyi olmadan orta məktəbi bitirməsin. İndi tələbə qəbulu elə sistemlə aparılır ki, orta məktəbin hazırladığı şagird tam yoxlana bilmir, şagirdin qabiliyyəti deyil, texnikası yoxlanılır. Orta məktəbin yaxşı yetirdiyi şagird çox gözəl yazmalıdır, ciddi surətdə təhlil aparmağı bacarmalıdır, ancaq bu qabiliyyətlər ali məktəbə qəbulda yoxlanılmır. Ali məktəbə qəbul yalnız test yazmaqla həll edilir. Test yazmaq da bir texnikadır. Ola bilər ki, şagird predmeti öz-özünə yaxşı öyrənsin ,amma testi "orta" yazsın. O da ola bilər ki, o, predmeti axıra qədər öyrənməsin, repetitor onu hazırlasın və yuxarı bal toplasın. Bunu bildikləri üçün valideynlər və şagirdlər orta məktəbdə ciddi oxumaq əvəzinə repetitorla hazırlaşmağa üstünlük verirlər. Uşaqların çox böyük hissəsi, hətta, ən kasıb ailələr uşaqları bir neçə fəndən repetitorla hazırlamağa çalışırlar. Bu, orta məktəblərin sanki lazımsızlığıdır, bədbəxtçiliyidir. Tamam tərsinə olmalıdır, yəni orta məktəb nə bilik verirsə, o da yoxlanılmalıdır. PISA - ümumdünya dəyərləndirməsi bütün ölkələrdə orta məktəb uşaqlarının fənləri necə bilməsini müəyyən edir. Bu dəyərləndirmə üzrə Azərbaycan axırıncı yerlərə yaxındır. Elə bunu Məleykə xanım da (Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri-red.) hər gün göstərir. Ancaq bunun səbəbi nədir? Səbəblərdən biri oxuyub təhlil etməyi biz qəbul imtahanında yoxlamırıq. Qəbul imtahanları qeyri-adi dərəcədə birtərəflidir.

### Əlçatmaz təhsil

**- ABŞ və ya Avropa təcrübəsində necədir: orta və ali məktəblərə qəbul hansı qaydalar üzrə keçirilir?**

- Avropa və Amerika təcrübəsində ali məktəbə qəbul zamanı şagirdin fəaliyyətini çoxşaxəli şəkildə öyrənirlər. Birinci, şagird, məsələn, son iki ildə orta məktəbdə necə oxuyub. Əgər bu şərt varsa, şagird də son iki ildə məktəbdə yaxşı oxumağa məcburdur. Bu, mühüm parametrdir. Bizdə bu, soruşulmur. İkinci, şagirdlə üz-üzə müsahibə edirlər. Yalnız bu söhbət zamanı qarşındakı adamın düşüncə, təhlil qabiliyyəti, özünü təqdim etməsi, verilən suallara cavab verməsi, çoxəhatəliliyi, zəif cəhətləri və s. üzə çıxır. Üçüncüsü, mütləq şagirdə esse yazdıraraq onun adi söhbət zamanı deyə bilmədikləri ilə tanış olur, düşüncə və təhlil orijinallığını və yazı savadını yoxlayırlar. Nəhayət, şagirdin orta məktəbdə oxumaqdan, təhsil almaqdan savayı hansı fəaliyyətinin olduğunu öyrənirlər. Məsələn, onun yaxşı musiqi, rəsm qabiliyyəti, idman göstəriciləri və ya ictimai fəaliyyəti ola bilər. Bütün bunlar həmin şəxsiyyət haqqında ətraflı təsəvvür verir. Bəzi ali məktəblər test imtahanının nəticələrini də istəyir (digərləri bununla maraqlanmırlar). Bütün bunların nəticəsində qərar qəbul olunur. Qərbdə abituriyentin yaxşı basketbolçu və ya şahmatçı olması qəbulda rol oynayır. Bu, insanın bir çox sahələrdə qabiliyyətini,yəni onun gücünü göstərir. Nəyə görə bunları nəzərdə tutmayasan? Çünki sən bütövlükdə insanı, onun şəxsiyyətini, qabiliyyətini yoxlayırsan. Ancaq bunlar bizim qəbul sistemimizdə yoxdur. Qərbdə proses bu qaydada həyata keçirildiyindən orada tələbələri çox diqqətlə, hər tərəfli qiymətləndirilməklə seçirlər. Üstəlik də faktiki olaraq kim istəyirsə, ali təhsil ala bilir.

Artıq Qərbi Avropa, Amerika, Yaponiya, Koreyada, hətta, Çində ali təhsil almaq istəyən adamın qarşısında durmurlar. Ali təhsil almaq istəyən adam haradasa özünə uyğun yer, ali məktəb tapır. Bizdə ali təhsil əlçatan deyil. Əlçatanlıq faizi təxminən 20 faizdir. Yəni 5 adamdan biri ali təhsil ala bilir.

Amma dünyada indi elə bir meyl var ki, necə ki, əvvəllər orta təhsili olmayan adam həyatda özünə yer tapa bilməzdi, indi inkişaf etmiş ölkələrdə orta məktəb təhsili haradasa gedib işləməyə kömək

eləmir, yəni mütləq ali təhsil almalısan. İnkişaf etmiş ölkələrdə ali təhsil icbari deyil, amma dövlət çalışır ki, bilik iqtisadiyyatı, informasiya cəmiyyəti, qloballizasiya şəraitində özünə yer tapmaq üçün hamı ali təhsil alsın. Həmin ölkələrdə ali təhsilə çıxış 80 faiz əlçatandır və onlar bunu 100 faizə çatdırmağa çalışırlar. İstəyirlər ki, ali təhsil almaq istəyən hər kəs ali təhsil alsın; bunun heç kəsə ziyanı yoxdur. Yəni orta məktəbdə zəif oxuyan bir uşaq özünə uyğun ali məktəb taparsa, bu, onu inkişaf etdirəcək. Biz isə testlə seçirik, qalanlarına veto qoyuruq. Orta məktəbin özündə və orta məktəbdən ali məktəbə keçiddə çox nöqsanlar var. Təbii ki, ali məktəblərin də öz nöqsanları var.

## Nə qədər ki, rüşvət və tapşırıq sistemi var...

**- Xarici ölkələrdə də repetitorluğa kütləvi axın var.**

- Ümumiyyətlə, repetitorluğa dünyada hər yerdə rast gəlinir, müxtəlif sahələrdə mövcuddur. Ancaq inkişaf etmiş ölkələrdə repetitorluq azdır. O yerdə repetitorluq çoxdur ki, orada mərkəzi imtahan, mərkəzi test sistemi var. Repetitorluğu doğuran əsasən mərkəzi test sistemidir. Problemlər sistemin düzgün qurulmamasından yaranır.

**- Bəs təhsildə korrupsiya halları nədən yaranır?**

- Ümumiyyətlə, ölkədə başqa sferalarda - idarəetmə sistemində, hökumət sistemində korrupsiya var və bununla çox ciddi mübarizə aparılmır. Məncə hökumət istəsə, məsələn, təhsil sistemində korrupsiyanın qabağı çox ciddi şəkildə alına bilər. Heç yüksək inkişaf etmiş ölkələrdən misal gətirmirəm. Sadəcə, götürək qonşu İranı və Türkiyəni. Bu ölkələrdə korrupsiya, rüşvət varmı? Müxtəlif sferalarda var. Bəs təhsildə korrupsiya varmı? Nə İranın, nə də Türkiyənin nə orta, nə də ali məktəb sistemində qəti surətdə korrupsiya halları yoxdur. Deməli, dünyanın çox da qabaqcıl olmayan ölkəsində də təhsildə korrupsiyadan tam azad olmaq olar. Çünki, o dövlətlərin də öz mədəni, tarixi və dövlətçilik ənənəsi var. Təhsil onlar üçün xüsusi əhəmiyyətə malik, üstün statusu olan sahədir. Burada kimsə rüşvət alsa onun karyerası məhv olar və cəmiyyətdə nüfuzdan düşər. Həmin ölkələrin bu məsələyə yanaşması o qədər ciddi olub ki, bu kimi hallara heç kim yol verə bilməz. Biz sözdə deyirik, işdə ona əməl etmirik. Müxtəlif sahələrdə olan korrupsiya təhsil sisteminə də daxil olur.

**- Hər hansı orta və ya ali məktəbdə korrupsiyanın olmaması üçün nədən başlamaq lazımdır?**

- Həmin təhsil ocağının başında duran birinci adamın özü rüşvət almamalıdır. Nəinki almamalıdır, o bunu ağlına da gətirməməlidir. Və o elə bir mühit yaratmalıdır ki, ümumiyyətlə, bu, mümkün olmasın. İnsanlar elə seçilməli, elə mühit formalaşdırılmalıdır ki, o insanlar rüşvət almaq istəməsinlər. İstəsələr də (insan təbiyyəti mürəkkəbdir və mühitə kənardan gələnlər ola bilər) mümkün olmasın. Burada qeyri-adi dərəcədə ciddi yanaşma olmalıdır. Rüşvət təkcə o deyil ki, pul verib iş görəsən, isdədiyinə nail olasan. Hər hansı bir uşağa- şagirdə, tələbəyə tapşırıqla qiymət vermək özü də korrupsiyadır. Bu, ədalətin pozulmasıdır. Bu, virus kimi bir şeydir – damcı boyda ora düşsə, o, mütləq böyüyür, yayılır, sistemin canına hopur. Yalnız "bir faiz rüşvət var" anlayışı yoxdur. Ya yüz faiz təmiz olmalıdır, ya da dediyim "bir faiz" böyüyüb bir sistemi öz qoynuna alacaq. Əgər orada təhsil ocağının başçısının övladı oxuyursa və o uşağa, fərqli,başqa cür baxılsa, orada tapşırıq da olacaq, rüşvət də. Dediyim ölkələrdə sistem elə qurulub ki, orada heç nə eləmək mümkün deyil. Siz inanın, mən bu universitetdə bir nəfər tələbənin də qiymətini düzəltmək iqtidarında deyiləm. Mən sistemi belə qurmuşam. Əgər sistemi "özümə əl yeri qoyum"- deyə qursam, onda o, sistem olmaz, parçalanar. Burda Xəzər Universitetində, onun nəzdində olan "Dünya"- məktəbində tapşırmaq yoxdur - bacarırsan oxu, bacarmırsan oxuma. Sən kimin övladı olmağından asılı olmayaraq imtahanı verməlisən. Lənkərandan gələn kasıb bir tələbə ilə vəzifəli və ya varlı şəxsin övladından heç bir fərqin yoxdur. Məsələ bu cür qoyulmasa, korrupsiya ilə mübarizə aparmaq mümkün deyil. Təəssüf ki, məktəb direktorlarının coxu belə deyil. Yəqin ali məktəblərdə rektorların da coxu bu cür deyil. Yəni tam təmiz ciddi sistem qurmamışlar. (deyirlər ki, tam qurmaq guya mümkün deyil...)

Təhsilin məqsədi vətəndaşların yetişməsi üçün onlara bərabər imkanlar yaratmaqdır. Amma rüşvət bərabər imkanları məhv etməkdir. Rüşvətlə, tapşırıqla təhsilin missiyaları bir-birindən fərqlidir. Bunlar bir yerdə mümkün ola bilməz. Nə qədər ki, rüşvət və tapşırıq sistemi aradan qaldırılmayacaq, keyfiyyətdən danışmaq mümkün olmayacaq.

## Çıxılmaz vəziyyət

**- Prezident Aparatındakı müşavirədə həmçinin dekanlıqların məsuliyyətinin artırılması və şəffaflığın təmin olunması ilə bağlı da məsələyə toxunulub. Dediyimiz korrupsiya mövzusundan həmin ştatlara da qınaq düşürmü?**

- Dekan nə edə bilər? Rektor dekandan nə və necə tələb edirsə, o da o cür işləyir. Əgər rektor dekana "filankəs nazirin qohumudur", "filankəsi mənə tapşırıblar" - deyə bir neçə tələbənin siyahısını verirsə, dekan da gedib bunu yerinə yetirəcək, üstəlik, öz istədiyi tələbələrə də imtahanda kömək edəcək. Yenə deyirəm, hər şey birinci adamdan asılıdır. Aşağıdakı, yəni tabe olan adamlar onun təyini üzrə hərəkət edirlər. Əgər birinci adam desə ki, "gedin pul yığın və mənə də verin", onda dekan və ya kafedra müdiri kimdir? Ya pul yığmalıdır, ya da işdən çıxmalıdır. Çünki birinci adamın ixtiyarı var ki, adamı işə götürsün və ya azad etsin. Əgər sən, yəni başçı, birinci adam görürsən ki, konkret olaraq kimsə bu işlə, rüşvətlə, tapşırıqla məşğuldur və onu işdən çıxarmırsansa, demək, bu vəziyyətlə razılaşırsan və ya bu vəziyyəti özün yaradırsan. Ona görə dekanların və ya kafedra müdirlə-

rinin səlahiyyətini artırmaq və ya azaltmağın o vaxt mənası olur ki, birinci adam rüşvətə qarşı qeyri-adi dərəcədə mübarizə aparır. Onda keyfiyyəti artırmaq üçün bu addımı atırlar, yəni vəzifələr üzrə muxtariyyəti artırırlar.

**- Bu günlərdə Almaniyanın təhsil naziri elmi işində plagiatlığa görə ittiham olunduğu üçün vəzifəsindən istefa verdi. Bizdə də plagiatlıqla bağlı kifayət qədər fikirlər səslənir. Ancaq oxşar addımlara hələ ki, rast gəlməmişik.**

- Korrupsiya sözünün kökü pozulma, mənəviyyatın aşınması, yəni işin öz axını ilə getməməsidir. Təhsil sistemində hər hansı pozuntu, hər hansı mənada düz yoldan kənara çıxmaq korrupsiyadır. Məsələn, tələbənin köçürməsi böyük korrupsiyadır. Yəni biri köçürür, yüksək qiymət, biri köçürmür aşağı qiymət alır. Köçürən adam haqsız olaraq qabağa gedir, təqaüd alır, yaxşı işə düzəlir... Ona görə tələbənin köçürməsi böyük korrupsiyadır. Eləcə də ali məktəbə gələn və digər yerlərdə çalışan alimin üzündən köçürməsi, öz zəhməti, istedadı ilə deyil, başqasının əməyini mənimsəməklə rütbə, vəzifə alması ciddi korrupsiyadır. Bir alim ki, illərlə arxivlərdə, kitabxanalarda oturub tədqiqat aparmadı, dissertasiya yazmadı, bir mənbədən üzünü köçürməklə və ya tərcümə etməklə alim oldusa, demək o alimliyə saxtakarlıqla gəldi. Sizcə o, saxtakarlıqla mübarizə apararmı? Demək o özü də şəraitdən asılı olaraq saxtakarlığa şərait yaradacaq. Saxtakarlığa göz yumacaq, çünki özü bu yolla gəlib. Korrupsiyanı çox vaxt dar mənada başa düşürlər. Bu təkcə kiminsə öz məqsədinə tez çatması üçün digərinə pul verməsi deyil. Bir addım və ya iki addım sonra hər mənada pozuntu, rüşvətə, saxtakarlığa gətirib çıxarır. Ona görə Almaniya kimi bir cəmiyyətdə məlum olanda ki, filan adam nazir olub və dissertasiyasında plagiat aşkarlanıb, deyirlər ki, o, bu vəzifəyə saxtakarlıqla gəlib. Deməк, o, işində də bunu davam ede bilər. Ona görə o, məsul dövlət vəzifəsində çalışa bilməz. Bunun fəlsəfəsi budur.

Bizdə, Azərbaycanda isə plagiat hadisəsi elliklə yayılıb. Dissertasiyaların bir qismi bunun üzərində qurulur. Bizim ingilis dilində çap olunan "Xəzər" humanitar və sosial elmlər jurnalımıza ("Khazar Jurnal of Humanites and Social Sciences") dünyanın hər tərəfindən daxil olan məqalələrin öncə plagiat olub-olmadığını yoxlayırıq. Bizim üçün birinci iş məqalənin plaqiat olmaması, ikinci iş isə onun keyfiyyətidir. Əgər həmin məqalədən bir neçə cümlə belə başqa bir yerdən götürülübsə, biz onu müəyyən edə bilirik. Plagiat varsa biz həmin məqaləni düşünmədən geri qaytarırıq. Plagiatlıq bizim Elmlər Akademiyası sistemində, ali məktəblərdə geniş yayılıb. Sanki bunun qarşısını almaq üçün mərkəzi komissiyalar düzəldilir. (əslində mərkəzləşmə hakimiyyət davasıdır) Hər sahədə mərkəzləşdirmə – qəbul, işəgötürmə, təyinat mərkəzləşdirmələri inkişafın ziyanınadır. Orada pozuntu da, rüşvət də, tapşırıq da olur. Məsələn, rektorların dünyada təyinatı necə olur? Heç də hər yerdə dövlət universitetlərinə rektoru hökumət təyin etmir. Dövlət universitetlərinin böyük qəyyumlar, himayəçilər şurası və ya idarə heyətindən ibarət qurumu var. Bu qurum hökumət adamları, universitetə kömək edən iş adamları, universitetin məşhur məzunları, elm və incəsənət xadimlərindən ibarətdir. Həmin idarə heyəti müsabiqə aparır, rektoru tapır və təyin edir. Rektor ona hesabat verir. Rektor icraçıdır. Əsas orqan isə idarə heyətidir. Rektor yaxşı işləməsə, onu çıxarıb yerinə başqasını seçirlər. Biz də rektor təyin olunur və Təhsil Naziri onu vəzifəsindən azad edə bilməz.

Bizim idarəetmə sistemimiz və nəzarət mükəmməl deyil. Düşünürəm ki, hansı təhsil ocağında vəziyyətin necə olmasını hökumət məndən qat-qat yaxşı bilir. İstənilən təhsil ocağında hökumət nəzarətçiləri var – istər özəl olsun, istərsə də dövlət təhsil ocağı. Bilirlər ki, tələbədən "orta", "yaxşı" və "əla" qiymət üçün nə qədər rüşvət alırlar. Hökumət özü də rüşvətin yayıldığını, onun miqdarını bunu deyir. Deməli, deyə-deyə tədbir görülə bilmirsə, bunun səbəbi odur ki, idarəetmə sistemi düz qurulmayıb. İstəyirlər rüşvət olmasın, amma həll edə bilmirlər. Belə bir çıxılmaz vəziyyət alınıb.

## Tədqiqatlar zəif gedir

**- Hər il dünya üzrə universitetlərin reytinqi açıqlanır. Nə üçün Azərbaycan universitetləri həmin siyahıya düşə bilmirlər?**

- Reytinq incə məsələdir. Əvvəla, çox cürbəcür reytinqlər var, yəni yeganə, tək bir dənə reytinq yoxdur. Müxtəlif təşkilatlar tərəfindən həyata keçirilən onlarla reytinq mövcuddur və onlar universitetləri müxtəlif istiqamətdə dəyərləndirirlər. Ən dəqiq, ciddi ölçən reytinq təşkilatları əsasən ali məktəbləri elmi səviyyəsinə görə ölçürlər. Çünki, hesab olunur ki, elm ali məktəbin ən vacib göstəricidir. İkincisi, elmin və alimin gücünü doğrudan da müəyyən dərəcədə ölçmək olur. Amma keyfiyyətli dərsi, tədrisi ölçmə çətindir. Düzdür, bunun da müəyyən ölçmək üsulları var. O yerdə ki, reytinqlər ancaq elmin səviyyəsinə görə ölçülür və elmin səviyyəsi birinci dərəcəlidir, Azərbaycan universitetləri orada yuxarı yer tuta bilmirlər. Çünki bizdə hal hazırda elm sovet dövründə olduğundan xeyli zəifdir.

Sovet dövründə elm nüfuzlu sahə idi. İnsanlar yaxşı riyaziyyatçı, fizik, bioloq, kimyaçı və s. olmaq istəyirdilər. İndi isə insanlar daha çox yaxşı iş adamı olmaq istəyirlər. İndi qabiliyyətli adamların böyük əksəriyyəti doktoranturaya daxil olmur, onlar gedib xaricdə magistr dərəcəsi alır və yüksək maaşa böyük şirkətlərdə işləyirlər. Onlar elmə ehtiyac duymurlar. Elmə gələnlərin böyük bir hissəsi ən istedadlılar deyil, 2, 3 və 4-cü eşalondur. Ən istedadların böyük hissəsi elmə gəlmir. Gələndə də onlarla məşğul olan səviyyəli alimlərin sayı cox azdır. Hazırda Azərbaycanda çox sahədə səviyyəli elmi rəhbər tapmaq sadə iş deyil. Çünki sovet dövründə yetişən əsil alimlər qocalıblar. Yeni nəsil güclü alimlər də yetişməyib. Elmlər Akademiyamız da zəifdir. Universitetlərin özündə də tədqiqatlar zəif gedir.

Əlbəttə, dünyada bizim Elmlər Akademiyası kimi mərkəzlər yoxdur. Avropa, Amerika, Yaponiya kimi ölkələrdə akademiyalar tamam başqa prinsiplə qurulur. O yerlərdə akademiyalar külli miqdarda elmi-tədqiqat institutlarından ibarət deyil. Elmi tədqiqatların hamısı universitetlərdə aparılır. Akademiya isə alimlərin cəmiyyətidir. Onlar orada elmi meyillərini, tədqiqatların nəticələrini dəyərləndirir, müzakirə edirlər. Onlar elmdə ən yüksək nəticə göstərənləri üzv seçir, mükafatlandırır, həvəsləndirirlər.

Bizim akademiya çoxlu elmi tədqiqat institutlarından ibarətdir. Əgər 200, 300, 500 alim orada işləyirsə, onlardan, məsələn, yalnız 4-5-i yüksək səviyyəli alimdir. Əgər normal alim varsa onlara şərait yaradıb yüksək maaş vermək lazımdır ki, o da gecə-gündüz oturub tədqiqatını aparsın, daha 5-6 yerdə çalışmasın. Bizdə bu sahədə – həm elmin, həm də təhsilin təşkilində islahata ehtiyac var.

## Bizdə "yox" deməyi sevirlər

**- Dərsliklərlə bağlı çoxlu iradlar səslənir. Hər il dərsliklərin və müəlliflərin dəyişməsi nə ilə bağlıdır?**

- Dərslikdəki problemlər də təhsil siyasətinin düzgün qoyulmaması ilə bağlıdır. Hər şeyin kökünü axtarmaq lazımdır ki, təhsildə filan sahə niyə zəifdir? Məsələn, sovet dövründə dərsliklər əsasən o dövrün öz sisteminə uyğun qurulmuşdu. Məsəln, 6-cı sinifdə həndəsədən cəmi bir dərslik vardı. Həmin dərsliyi ən güclü alimlər, pedaqoqlar yazırdı. Dərslik dəfələrlə müzakirə olunurdu və nəticədə sınanmış, elmi və pedaqoji cəhətdən yaxşı bir bir dərslik alınırdı ki, bəlkə də ondan yaxşısını yazmaq asan iş deyildi. Digər milli xarakter daşıyan dərsliklər - ədəbiyyat, tarix-onlar da bir qədər dövlətin ideologiyasını əks etdirməklə sanballı alimlər tərəfindən yazılırdı. Sonra həmin dərsliklər təkmilləşdirilirdi. Hər nəşrdə xırda nöqsanlar aradan qaldırılırdı. Mərkəzləşdirilmiş sistemin mərkəzləşdirilmiş tədris siyasəti var idi.

Başqa bazar iqtisadiyyatı olan inkişaf etmiş ölkələrdə deyirlər ki, kim istəyir dərslik yazsın. Dərsliklər yazılır, alimlər, pedaqoqlar həmin dərslikləri ciddi qiymətləndirirlər. Bizdə isə bu sistem də düzgün qurulmayıb. Görünür, bizdə kitab yazmaq istəyən müəlliflərin seçilməsində yaxşı təkliflər az olur. Məsələn, 10 dərslik əvəzinə ortaya 2-si qoyulur. Nəticədə ortada bir dərslik qalır və o da keyfiyyətli olmur. Burada da həmin korrupsiya məsələsi ortaya çıxır. Məlum olur ki, həmin dərsliklərin xeyli hissəsi köçürülüb, özü də yaxşı köçürülməyib. Köçürən də onu yaxşı başa düşməyib, bir az da tərs yazıb. Dili də biabırçıdır. Uşaq da, müəllim də oxuyur və onu başa düşmür. Hər tərəfdən onu tənqid edirlər. Kitabın da ortaya çıxmasında müəyyən məsul, vəzifəli adamların əli olduğu üçün "yaramır" demək əvəzinə, müdafiə etməyə başlayırlar. Bir tərəf kəskin hücum edir, digər tərəf də "kitabda nöqsanlar olar, biz onları aradan qaldırmalıyıq" deyir. Harada ki, bu və ya digər dərəcədə pozuntuya yol verilir, o cümlədən orta məktəb dərslikləri yaxşı yazılmır, orada keyfiyyət aşağı düşəcək.

**- Texniki-peşə məktəblərinin fəaliyyətinin artırılmasına nə qədər lüzum var?**

- Bu sahədə böhran bəlkə orta və ali məktəbdən daha böyükdür. Sovet dövründəki peşə məktəbləri o dövr üçün mövcud olan peşələri yetişdirirdi. Hər dövrün öz peşələri var və onlar dəyişir, məzmun dəyişir, tələbat dəyişir. Bu gün yeni sənətlər əmələ gəlib. Məsələn, hər idarəyə kompyuter operatoru lazımdır. Vacib deyil ki, kompyuter operatoru gedib 4 il ali məktəbdə oxusun. Onu bir-iki ilə də hazırlamaq olar. Və yaxud bir qaynaqçını da qısa vaxtda yetişdirmək olar. Onlar gedib ali təhsillidən də yaxşı qazana bilərlər. Mən düşünürəm ki, peşə təhsili mütləq böyük istehsalat müəssisələri ilə bir yerdə həyata keçirilməlidir. Köhnə sistem çökdü və bu yenidən yaranmalıdır. Yenidən yaranmasının isə bir neçə üsulu var. Amma yenə də burada qarşıya sədlər çəkilir. Ümumiyyətlə, bizim təhsil sistemində "yox" deməyi sevirlər. Əgər mən peşə təhsili sistemi qurmaq istəyirəmsə, elə bir yer yoxdur ki, məsələnin həlli üçün ona müraciət edə bilim. Deyirlər, bunun üçün icazə almalısan. Kimdən icazə almalısan, bilinmir. Yazacaqsan, icazə vermirlər. Bir tərəfdən bu sahəni yenidən yaratmaq lazımdır, digər tərəfdən yenisini yaratmaq üçün yol açıq deyil, yol yoxdur. Buna nəinki icazə verməlidirlər, əksinə, xahiş etməlidirlər. Dünyada belədir. Mənim kimi bu işin əhəmiyyətini başa düşən və bacaran adamlar var. Amma heç kəs bunu həyata keçirə bilmir.

**- Sonuncu sualım. Yaxşı alim olmaq asandır, yoxsa yaxşı mütəxəssis?**

- Hər ikisi çətindir. Məncə yaxşı insan olmağa çalışmaq anlayışı yoxdur. İnsan sadəcə yaxşı olur və ya olmur. Ümumiyyətlə, insanların çoxu demək olar ki, pis deyillər. Sadəcə, o mühit, sistem insanları əzir, özünə tabe edir. Həyatın çətinlikləri və şərait içdən yaxşı olan insanı dəyişdirir. Çünki yaşamaq üçün ona bu və ya başqa cür hərəkət etmək lazımdır. Bizi sıxan bu sistemin səddini keçib, öz içindəki yaxşılığı tam saxlaya bilən adamlar çox güclü olmalıdırlar. Belələri az olur. Sistemin məhdudiyyətləri onlara təsir eləmir. Bu, böyük daxili güc, enerji tələb edir. Mən həmişə deyirəm ki, insanların çoxunu çox qınamaq olmur. Onlar sadəcə, ətraflarında formalaşmış sistemin içində yaşayırlar. Sistemi sındırıb çıxmağa gücləri çatmır. Yaxşı mütəxəssis olmaq üçünsə yenə də insanın içindəki daxili enerji, saflıq, ehtiras gətirib mütəxəssisə çıxarır. Çünki o insan nələrdənsə əl çəkməli, başqaları üçün nemət hesab olan şeylərə göz yummalıdır. O, öz mövcudluğunu, xoşbəxtliyini başqa bir şeydə, öz peşəsində görəcək. Bu da çətin işdir. Ancaq bunlar bir-biri ilə bağlıdır. Görünür ki, içdə olan enerji, mənəviyyat birləşib bir sistemə çevrilə bilir...

***Təranə Məhərrəmova,***
***"Kaspi" qəzeti***
***12-13 fevral 2013-cü il***